# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

## Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin təsvirinin, spesifikasiyasının, nümunəsinin və verilməsi qaydasının təsdiq edilməsi haqqında

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 4231 nömrəli Sərəncamının 1.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin təsviri" təsdiq edilsin (1 nömrəli əlavə).
2. "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin spesifikasiyası" təsdiq edilsin (2 nömrəli əlavə).
3. "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin nümunəsi" təsdiq edilsin (3 nömrəli əlavə).
4. "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin verilməsi Qaydası" təsdiq edilsin (4 nömrəli əlavə).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 2 iyul 2024-cü il

№ 329

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 2 iyul
tarixli 329 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**1 nömrəli əlavə**

## Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin

## TƏSVİRİ

1. Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqə (bundan sonra - vəsiqə) 84,6 mm x 54 mm ölçüdə olur.

2. Vəsiqənin üz tərəfinin:

2.1. yuxarı sol küncündə Azərbaycan Respublikası Dövlət Bayrağının rəngli təsviri verilir;

2.2. yuxarı orta hissəsində "DƏMİRYOL NƏQLİYYATI VASİTƏLƏRİNİ İDARƏ ETMƏK HÜQUQUNU TƏSDİQ EDƏN VƏSİQƏ", ingilis dilində "Railway vehicle driving license" sözləri yazılır.

3. Vəsiqənin orta hissəsində sol küncdə 20 mm x 25,5 mm ölçüdə vəsiqə sahibinin fotoşəkli üçün yer nəzərdə tutulur. Fotoşəklin sağ tərəfində yuxarıdan aşağı şaquli istiqamətdə Azərbaycan və ingilis dillərində qeyd olunmaqla vəsiqə sahibinin "Soyadı/Surname", "Adı, atasının adı/Name, patronymic", "Doğulduğu tarix/Date of birth", "Cinsi/Sex", "Vəsiqəni verən qurumun adı/Issuing authority name", "Vəsiqənin nömrəsi/License number", "Etibarlılıq müddəti/Date of expiry" haqqında məlumatlar qeyd olunur.

4. Vəsiqənin aşağı hissəsində sağ küncdə "Azərbaycan Dəmir Yolları" QSC-nin xüsusi basqılı möhürü yerləşdirilir.

5. Fotonun alt hissəsində "Qan qrupu/Blood group", "Kateqoriya/Category" göstərilir.

6. Fotonun alt hissəsində dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququ verilmiş kateqoriya, vəsiqənin sağ hissəsində isə vəsiqənin etibarlılıq müddəti qeyd olunur.

7. Sözlə yazılan məlumatlar Azərbaycan Respublikasının dövlət dilində və ingilis dilində yazılır. Vəsiqə sahibinin cinsi "kişi" və "male" və ya "qadın" və "female" sözlərinin baş hərfləri göstərilməklə müvafiq olaraq "K/M" və ya "Q/F" kimi qeyd olunur.

8. Vəsiqənin arxa tərəfinin:

8.1. yuxarı sol hissəsində Azərbaycan Respublikası Dövlət Gerbinin rəngli təsviri əks olunur;

8.2. orta hissəsinin sağ tərəfində Azərbaycan və ingilis dillərində olmaqla vəsiqənin kateqoriyası "Kateqoriya/Category" və açıqlamaları "Açıqlama/Disclosure" məlumatları yer alır;

8.3. orta hissəsinin sol tərəfində təhlükəsizlik məqsədilə Azərbaycan Respublikasının xəritəsi və milli ornamentlərin əks olunduğu xüsusi çap texnologiyası ilə hazırlanmış fərqləndirici elementlər olan holoqram yer alır;

8.4. aşağı hissəsində "Vəsiqə sahibinin imzası/Holder`s signature" və çağrı mərkəzinin əlaqə nömrəsi qeyd olunur.

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 2 iyul
tarixli 329 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**2 nömrəli əlavə**

## Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin

## SPESİFİKASİYASI

1. Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqə (bundan sonra – vəsiqə) aşağıdakı minimal xüsusiyyətlərə malikdir:

1.1. vəsiqənin ölçüləri 84,6 mm x 54 mm ölçülü, 0,76 mm qalınlığında, dəyirmi künclüdür;

1.2. vəsiqə uzunömürlülük və dözümlülük baxımından yüksək-keyfiyyətli xüsusi təyinatlı materialdan hazırlanır;

1.3. vəsiqədəki yazılar xüsusi qoruyucu təbəqə çəkilməklə etibarlı şəkildə mühafizə olunur.

2. Təhlükəsizlik: şəkil hissəsinin alt fonuna xüsusi basqı ilə fərqləndirici ultrabənövşəyi çap texnologiyası, mikroelementlər və (OVİ - optically variable ink) müxtəlif rakurslar altında rəngini dəyişən elementlər əks etdirilir.

3. Ornamentlər: Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi, xəritə və naxış elementi qeyd olunur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 iyul tarixli 329 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**3 nömrəli əlavə**

# Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin

## NÜMUNƏSİ

## Üz tərəfi




## Arxa tərəfi



Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 2 iyul
tarixli 329 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**4 nömrəli əlavə**

# Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin verilməsi

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin (bundan sonra – vəsiqə) verilməsi qaydasını tənzimləyir.

1.2. Vəsiqə ümumi istifadəli dəmir yollarında və qeyri-ümumi istifadəli dəmir yollarında hərəkət edən bu Qayda ilə müəyyən edilmiş dəmiryol nəqliyyatı vasitəsini idarə etmək hüququnu təsdiq edən vahid sənəddir.

1.3. Vəsiqənin verilməsi, o cümlədən dəyişdirilməsi və reyestrinin aparılması "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra – vəsiqəni verən orqan) tərəfindən həyata keçirilir.

1.4. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 2. Vəsiqənin verilməsi

2.1. Vəsiqənin aşağıdakı kateqoriyaları vardır və müvafiq olaraq göstərilən dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu nəzərdə tutur:

"Eq" – Elektrik qatarı;
"Dz" – Dizel qatarı;
"E" – Elektrovoz;
"T" – Teplovoz;
"Lm" – Lokomobil;

"M/Dr/Mk" – Motovoz/drezin/maşın kompleksi.

2.2. Vəsiqə onun verilməsi ilə bağlı keçirilən ixtisas imtahanının (bundan sonra – ixtisas imtahanı) tələblərinə uyğun olaraq müvafiq keçid balını toplamış şəxslərə verilir. İxtisas imtahanının təşkili və keçirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi Qaydası"na uyğun olaraq vəsiqəni verən orqan tərəfindən təmin olunur.

2.3. Vəsiqə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin təsviri"nə, "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin spesifikasiyası"na və Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin nümunəsi"nə uyğun hazırlanmalıdır və onun üzərində göstərilən məlumatların düzgünlüyünə vəsiqəni verən orqanın vəzifəli şəxsi cavabdehdir.

2.4. Vəsiqənin üzərində təsvirinə uyğun olaraq məlumatlar əks olunduqdan sonra vəsiqəni verən orqanın vəzifəli şəxsi tərəfindən Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan möhürü ilə təsdiq edilir.

2.5. Vəsiqə ixtisas imtahanının nəticələri elan olunduqdan sonra 15 (on beş) iş günü müddətində namizədə təqdim edilir.

2.6. Vəsiqənin etibarlılıq müddəti aşağıdakı kimi müəyyən edilir:

2.6.1. 60 yaşına çatmamış şəxslər üçün – 10 (on) il;

2.6.2. 60 və daha çox yaşı olan şəxslər üçün – 2 (iki) il.

2.7. Vəsiqənin sahibi vəsiqənin qorunmasına görə cavabdehlik daşıyır və dəmiryol nəqliyyatı vasitəsini idarə edən zaman onu üzərində saxlamalıdır.

## 3. Vəsiqənin dəyişdirilməsi

3.1. Vəsiqə aşağıdakı hallarda (vəsiqənin sahibi ixtisas imtahanına cəlb edilmədən) dəyişdirilir:

3.1.1. yararsız vəziyyətə düşdükdə;

3.1.2. etibarlılıq müddəti bitdikdə;

3.1.3. sahibinin soyadı, adı və ya atasının adı dəyişdikdə;

3.1.4. üzərində göstərilən məlumatlarda uyğunsuzluğun olduğu müəyyən edildikdə.

3.2. Vəsiqənin dəyişdirilməsi üçün (bu Qaydanın 3.3-cü bəndində qeyd edilən hal istisna olmaqla) vəsiqənin sahibi bu

Qaydanın əlavəsində göstərilən formaya uyğun ərizə ilə vəsiqəni verən orqana müraciət edir (ərizə forması əlavə olunur). Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

3.2.1. şəxsiyyəti təsdiq edən sənədin surəti;

3.2.2. vəsiqənin əsli (vəsiqəsinin itirilməsinə görə onun dəyişdirilməsi halı istisna olmaqla);

3.2.3. 2 ədəd 3x4 ölçüdə biometrik fotoşəkil;

3.2.4. bu Qaydanın 3.1.2-ci yarımbəndində göstərilən halda sağlamlıq haqqında tibbi arayış (qanunvericiliklə müəyyən edilmiş qaydada nəqliyyatla bilavasitə əlaqədar olan işlərdə çalışan işçinin işə yararlılığının müəyyən edilməsi üçün aparılan tibbi müayinəyə uyğun).

3.3. Bu Qaydanın 3.1.4-cü yarımbəndində qeyd olunmuş halda vəsiqənin dəyişdirilməsi üçün vəsiqənin sahibi şəxsiyyəti təsdiq edən sənədin surəti və vəsiqənin əsli ilə birlikdə bu Qaydanın əlavəsində göstərilən formaya uyğun ərizə ilə vəsiqəni verən orqana müraciət edir. Həmin halda vəsiqənin dəyişdirilməsi əlavə sənəd tələb edilmədən həyata keçirilir.

3.4. Bu Qaydanın 3.2-ci və 3.3-cü bəndlərində nəzərdə tutulmuş ərizələr qeydiyyata alınır və 10 (on) iş günü müddətində baxılır. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar müəyyən edilmədikdə (ərizə formasının natamam doldurulması, sənədlərin tam təqdim edilmədiyi aşkar olunmadıqda) və imtina edilməsi üçün əsaslar olmadıqda 15 (on beş) iş günü müddətində şəxsə əvvəllər malik olduğu bütün kateqoriyalar saxlanılmaqla yeni vəsiqə təqdim edilir.

3.5. Təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə bu barədə şəxsə 5 (beş) iş günü müddətində yazılı bildiriş göndərilir. Bu zaman ərizəyə baxılması müddətinin axımı dayandırılır və dayandırılmış müddət ərizənin baxılması müddətinə daxil edilmir. Çatışmazlıqlar 5 (beş) gün müddətində aradan qaldırıldıqda ərizəyə baxılması müddətinin axımı bərpa olunur və ərizəyə bu Qaydanın 3.4-cü bəndi ilə müəyyən edilən müddətdən gec olmayaraq baxılır.

3.6. Vəsiqə itirildikdə yeni vəsiqənin verilməsi (əvvəllər malik olduğu bütün kateqoriyalar saxlanılmaqla və ixtisas imtahanına cəlb edilmədən) üçün vəsiqənin sahibi bu Qaydanın əlavəsində göstərilən formaya uyğun ərizə ilə vəsiqəni verən orqana müraciət edir (ərizə forması əlavə olunur). Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

3.6.1. şəxsiyyəti təsdiq edən sənədin surəti;

3.6.2. 2 ədəd 3x4 ölçüdə biometrik fotoşəkil.

3.7. Sənədlər natamam təqdim edildikdə və həmin sənədlərdəki çatışmazlıqlar müəyyən edilmiş müddətdə aradan qaldırılmadıqda vəsiqənin dəyişdirilməsindən və yenisinin verilməsindən imtina edilir və onun səbəbləri barədə vəsiqə sahibinə yazılı (kağız daşıyıcıda və ya elektron formada) məlumat göndərilir.

3.8. Vəsiqənin dəyişdirilməsindən və yenisinin verilməsindən imtina edilməsi üçün əsas olan bu Qaydanın 3.7-ci bəndində göstərilən hal aradan qaldırıldıqdan sonra vəsiqənin dəyişdirilməsi ilə əlaqədar bu Qayda ilə müəyyən edilmiş qaydada yenidən müraciət edilə bilər.

## 4. Vəsiqənin müvəqqəti alınması

4.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 iyun tarixli 102 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dəmir yolu müəssisələrində işçilərin İntizam Nizamnaməsi"nə əsasən dəmiryol nəqliyyatı vasitəsini idarəetmə hüququ müvəqqəti məhdudlaşdırıldıqda məhdudlaşdırmanı həyata keçirən subyekt tərəfindən vəsiqə sahibindən alınaraq vəsiqəni verən orqana göndərilir. Müvəqqəti məhdudlaşdırılma müddəti bitdikdə vəsiqə aşağıdakı qaydada sahibinə qaytarılır:

4.1.1. dəmiryol nəqliyyatı vasitəsini idarəetmə hüququ bir ildən çox müddətə məhdudlaşdırılmış şəxslərə nəzəri imtahanı müvəffəqiyyətlə verdiyi gün;

4.1.2. dəmiryol nəqliyyatı vasitəsini idarəetmə hüququ bir il və daha az müddətə məhdudlaşdırılmış şəxslərə imtahansız, həmin müddət bitdiyi gün.

## 5. Vəsiqənin reyestri

5.1. Aşağıdakı məlumatlar əsasında vəsiqənin verilməsi, dəyişdirilməsi və müvəqqəti alınması ilə bağlı reyestr aparılır:

5.1.1. vəsiqə sahibinin adı, soyadı və atasının adı (dəyişdirildiyi halda bu barədə qeydlər);

5.1.2. vəsiqənin nömrəsi və verilmə tarixi;

5.1.3. vəsiqə dəyişdirildiyi halda əvvəlki vəsiqənin nömrəsi və verilmə tarixi;

5.1.4. vəsiqənin etibarlılıq müddəti;

5.1.5. vəsiqə qüvvədən düşdüyü halda qüvvədəndüşmə tarixi;

5.1.6. vəsiqə üzrə kateqoriyalar;

5.1.7. vəsiqə sahibinin yaşayış yeri;

5.1.8. vəsiqə sahibinin doğulduğu tarix;

5.1.9. vəsiqə sahibinin qan qrupu və cinsi;

5.1.10. vəsiqə sahibinin dəmiryol nəqliyyatı vasitəsini idarə etmək hüququ müvəqqəti məhdudlaşdırıldığı hallarda müddətin başlama və bitmə tarixi.

5.2. Bu Qaydanın 5.1-ci bəndində qeyd edilən məlumatlarda dəyişiklik olduğu təqdirdə 1 (bir) iş günü müddətində reyestr məlumatlarında dəyişiklik aparılır.

## 6. Yekun müddəalar

6.1. Bu Qaydanın qüvvəyə mindiyi tarixədək müvafiq qaydada verilmiş və etibarlılıq müddəti bitməmiş vəsiqələrin (dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən şəhadətnamələr) sahibləri 2025-ci il 1 iyul tarixinədək yeni nümunəyə uyğun olaraq vəsiqənin alınması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 iyul tarixli 328 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi Qaydası" ilə müəyyən edilmiş qaydada vəsiqəni verən orqana müraciət etməlidirlər.

6.2. Vəsiqənin verilməsi və dəyişdirilməsi ilə bağlı vəsiqəni verən orqanın qəbul etdiyi qərarlardan və onun vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) qanunvericiliyə uyğun olaraq inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

"Dəmiryol nəqliyyatı vasitələrini
idarə etmək hüququnu təsdiq edən
vəsiqənin verilməsi Qaydası"na

**əlavə**

**Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin dəyişdirilməsi və yenisinin verilməsi haqqında**

**ƏRİZƏ**

<table>
<tr><td colspan="4">Vəsiqə sahibi barədə məlumatlar:</td></tr>
<tr><td>Soyadı: ____________________</td><td colspan="2">Adı: ________</td><td>Atasının adı: ________</td></tr>
<tr><td>Şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi:</td><td colspan="3"></td></tr>
<tr><td>FİN:</td><td colspan="3"></td></tr>
<tr><td rowspan="2">Doğulduğu tarix:</td><td>gün</td><td>ay</td><td>il</td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td>Yaşayış yeri:</td><td colspan="3"></td></tr>
<tr><td>Əlaqə telefonu:</td><td colspan="3"></td></tr>
<tr><td>Elektron poçt ünvanı:</td><td colspan="3"></td></tr>
<tr><td colspan="4"></td></tr>
<tr><td colspan="4">Mənə məxsus olan dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən aşağıdakı vəsiqənin qeyd edilən səbəbə görə dəyişdirilməsini xahiş edirəm:</td></tr>
<tr><td colspan="4">Vəsiqə barədə məlumat:</td></tr>
<tr><td>Nömrəsi: ___________________</td><td colspan="3">Kateqoriyası: ____________________</td></tr>
</table>

| | |
|---|---|
| Vəsiqənin dəyişdirilməsi səbəbi: | |
| Ərizəyə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş “Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin verilməsi Qaydası”na uyğun olaraq dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnu təsdiq edən vəsiqənin dəyişdirilməsi üçün zəruri olan aşağıda qeyd olunan sənədlər əlavə edilir:<br>______________________________<br>______________________________<br>______________________________ | |
| İmza: | |
| Ərizənin tərtib olunduğu tarix: | |
| Ərizəyə əlavə edilən sənədlərin sayı (vərəqlə): | |